# ŞƏKİ-ZAQATALA BÖLGƏSİ ƏRAZİSİNDƏ BİOMÜXTƏLİFLİYİN REQRESSİV LANDŞAFT DİNAMİKASI VƏ SƏHRALAŞMA PROSESLƏRİ İLƏ ƏLAQƏLƏRİ

**Hüseyn Mustafabəyli, Murad Qəhrəmanov**

*AMEA-nın Şəki Regional Elmi Mərkəzi, huseyn.mustafabeyli@mail.ru, m.xanov4@gmail.com*

Dünyada ekoloji vəziyyətlə bağlı müxtəlif ətraf mühit çirkləndiricilərinin və xüsusilə radiasiyanın insan sağlamlığına mənfi təsiri 25%-dən artıqdır. Ekspertlər yaxın 30-50 il ərzində bu reqressiv təsirin göstəricilərinin 50%-dən yüksək olacağını proqnozlaşdırırlar.

Hazırda insan sağlamlığına aid problemin kökündə antropogen-texnogen mənşəli iqlim dəyişmələri amili durduğundan, Yer kürəsində baş vermiş qlobal miqyaslı istiləşmə və buzlaşma mərhələlərindən kəskin surətdə fərqlənən bir mənzərə yaranmışdır. Bu mərhələdə aşağıdakılar müşahidə olunur: troposferdə ozon qatının naziklənməsi və ultrabənövşəyi şüaların artması; səhralaşma prosesinin sürətlənməsi və torpaqların deqradasiyası, münbitliyin və faydalı biofil elementlərin (K, P, N) azalması; yerüstü su hövzələrində çöküntülərin dəyişilməsi və içməli suların keyfiyyətinin aşağı düşməsi; təbii rəqabətdə bitki və heyvan biomüxtəlifliyinin azalması; içməli şirin suların miqdarının azalması və ekosistemlərin zəifləməsi; torpaqların məhsuldarlığının aşağı düşməsi, ərzaq və su qıtlığı hesabına əhalinin yerdəyişməsi problemlərinin yaranması.

Təbiətdə biomüxtəlifliyin qorunmasında və onun azalmasının qarşısının alınmasında ən faydalı vasitələrdən biri təbii biomüxtəliflik rezervuarları olan biogeomorfosenozların mühafizəsinin təşkili və onlardan düzgün istifadə edilməsidir.

Biogeomorfosenozlar yarıqapalı dərə relyef şəraitinə malik xüsusi biogeosenoz sahələr olmaqla, qonşu ərazilərə nisbətən güclü küləklərin və quraqlıqların yoxluğu, rütubətliliyin və bununla əlaqədar yerüstü və yeraltı suların bolluğu ilə səciyyələnən təbii komplekslərdir. Onlar fərqli mikroiqlim şəraitinə, böyük miqdarda biokütlə toplanmasına, bitki və heyvanların növ müxtəlifliyi və üstün rekreasiya keyfiyyətlərinə malik olurlar. Münbit torpaq şəraitinə, ətraf ərazilərə nisbətən landşaft tarazlığına uyğun gələn və zəngin biomüxtəlifliklə fərqlənən landşaft mərzləri Böyük Qafqazın cənub yamacında daha geniş yayılmışdır. Balakən rayonu ərazisində Mazımqara, Salban, Katex; Zaqatala rayonunda Sabunçu, Çimcimax, Mişleş, Car; Qax rayonunda Zərnə, Ləkit, İlisu, Armudlu dağ meşələri; Şəki rayonunda Baş Göynük, Baş Şabalıd, Marxal, Mustafabəy, Baş Kəldək, Keşnəzər dağ meşələri; Oğuz rayonunda Baş Daşağıl (Düzəndərə, Govurdərə, Cəyirli, Yeldağ, Karvan, Tikanlı, Holar), Muxas, Xalxal və Filfili dağ meşələri, Qəbələ rayonu ərazisində Qəmərvan, Laza, Vəndam yaşayış məntəqələrinə yaxın olan meşə biogeosenozlarında dağ-meşə qəhvəyi torpaqlarında zəngin biomüxtəlifliyə rast gəlinir.

Nümunə kimi göstərilən Baş Şabalıd biogeomorfosenozunun bir sıra səciyyəvi landşaft xüsusiyyətləri mövcuddur. Bu xüsusiyyətlər içərisində ən vacibi Böyük Qafqazın cənub ətəklərində yerləşən Baş Şabalıd biogeosenozunda yamacların şimala və şimal-qərbə doğru uzanan geomorfoloji struktura malik olmasıdır. Relyef formasına uyğun olmayan kiçik ölçülü antiklinal strukturla mürəkkəbləşmə nəticəsində ərazidə Yura və Təbaşir dövrünün 8 lay dəstəsinin süxurları iştirak edir. Bu süxurlar hesabına formalaşan orta kimyəvi elementlərlə səciyyələnən torpaqlarda bütün Cənubi Qafqaz üçün xarakterik əlamətləri özündə əks etdirən biomüxtəlifliyə malik landşaft mərzi yaranmış olur.

Təbiətdə biomüxtəlifliyin qorunması üçün vacib olan digər tədbirlər sırasında aşağıdakı təxirəsalınmaz işlərin görülməsi məqsədəuyğundur: landşaftlarda toplanan zərərli kimyəvi birləşmələrlə mübarizə; torpaqlarda faydalı komponentlərin artırılması zərurəti; iqlim dəyişmələrinin yumşaldılması; xəstəliklərə qarşı müqavimətin artırılması; səhralaşma və bataqlaşmalara qarşı mübarizə tədbirlərinin yerinə yetirilməsi.